**“Təsdiq edirəm”**

**Naxçıvan Dövlət Universitetinin**

**rektoru: E.S.İsayev**

**26 dekabr 2023–cü il**

**Naxçıvan Dövlət Universitetində istehsalat təcrübəsinə dair**

# QAYDALAR

## 1. Giriş

1.1. Naxçıvan Dövlət Universitetində istehsalat təcrübəsinə dair Qaydalar (bundan sonra - Qaydalar) ixtisaslı kadrların hazırlanması, onların ixtisasları üzrə aldıqları biliklərin təkmilləşdirilməsi, ixtisas və peşə səriştəliliyinin yüksəldilməsi, istehsalat təcrübələrinin təşkilində və keçirilməsində vahidliyin gözlənilməsi, təcrübələrin qiymətləndirmə meyarları və üsulları, bəzi ixtisaslarda təcrübələrin mərhələlər üzrə müddəti və qiymətləndirilməsi, habelə təcrübə dövründə müvafiq sənədlərin tərtib edilməsi məqsədilə hazırlanmışdır.

1.2. İstehsalat təcrübələri ali təhsil müəssisəsinin rəhbərinin - rektorun əmrinə əsasən başlayır və bunun üçün əvvəlcədən təcrübə bazaları ilə müqavilələr bağlanmalıdır.

1.3. İstehsalat təcrübələrinin təşkili üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2008-ci il 26 sentyabr tarixli, 1102 saylı əmri ilə təsdiq edilmiş “Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə”, qüvvədə olan mövcud tədris planları və bu Qaydalar əsas götürülür.

**Qeyd**: İstehsalat təcrübələrinə yalnız ixtisasa uyğun olan tədris planında nəzərdə tutulmuş bütün kursu yerinə yetirən (kredit borcu olmayan) tələbələr buraxılır.

## 2. Təcrübələrin qiymətləndirilməsi

2.1. Hər bir tələbə təcrübə müddətində gördüyü işlərə, bölmələr üzrə mənimsəmə səviyyəsinə, müvafiq sənədlərin lazımi səviyyədə yerinə yetirilməsinə və təqdim etdiyi hesabata görə ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş qiymətləndirmə üsulu və meyarlarına əsasən təcrübə rəhbər(lər)i tərəfindən 100 ballıq sistemlə qiymətləndirilməlidir.

2.2. Təcrübələrin qiymətləndirilməsi iki mərhələdə aparılır:

2.2.1. Tələbələrin təcrübə dövründəki fəaliyyətlərinə görə qiymətləndirmə (Təcrübə dövründəki fəaliyyətlərə görə qiymətləndirilmə universitet üzrə təcrübə rəhbəri və müəssisə üzrə təcrübə rəhbəri tərəfindən aparılır);

2.2.2. Tələbələrin təqdim etdiyi təcrübə hesabatına görə (Təcrübənin hesabatına görə qiymətləndirilməsi isə ali təhsil müəssisəsinin rəhbərinin əmrinə əsasən yaradılmış təcrübə komissiyası tərəfindən aparılır).

2.3. Təcrübələrdə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbələr təkrarən təcrübə (ödənişli əsaslarla) keçməlidirlər.

## 3. Qiymətləndirilmə meyarları

3.1. Təcrübənin nəticələri 100 ballıq sistem üzrə qiymətləndirilir.

3.2. Qiymətləndirmə meyarları (Tələbənin təcrübədəki fəaliyyəti və hesabatın qiymətləndirilməsi) aşağıdakı kimidir:

3.2.1. Davamiyyətə görə - maksimum 10 bal (Davamiyyətə görə verilən balın hesablanması qaydası aşağıdakı kimidir. Tələbənin təcrübədə iştirak etdiyi günlərin sayı davamiyyətə ayrılan maksimum bala (10 bal) vurularaq, təcrübədə iştirak etməli günlərin ümumi cəminə bölünür.

Nümünə: Məsələn, tutaq ki, tələbə təcrübədə 25 gün iştirak etməlidir. Lakin 19 gün iştirak edib.

$\frac{19\times10}{25} = 7,6$ Deməli, tələbə davamiyyətdən 7,6 bal alıb).

3.2.2. Tələbənin təcrübədə iştirak etmədiyi günlər 25% və daha çox olduqda tələbə təcrübədən keçməmiş sayılır və tələbə təcrübəni təkrar keçməlidir.

3.2.3. Tələbənin təcrübə məşğələlərində fəallığına görə verilən bal – maksimum 40 bal

3.2.4. Tələbənin müəssisənin iş fəaliyyətində iştirakına görə verilən bal –maksimum 40 bal

3.2.5. Tələbənin hazırladığı hesabata görə verilən bal – maksimum 10 bal

3.3. Hər hansı mərhələdən qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir və o, hesabata buraxılmır.

## 4. Hesabatların qiymətləndirilməsi

4.1. Təcrübənin sonunda təcürbəçi tələbə təcrübə dövründəki fəaliyyəti ilə bağlı müvafiq qaydada hesabat verməlidir. Hesabatın qiymətləndirilməsi üçün fakültə dekanının təqdimatına əsasən rektorun əmri ilə komissiya yaradılır. Hər bir tələbə komissiya qarşısında təcrübə dövründə gördüyü işlərlə bağlı hesabatını təqdim etməlidir. Yuxarıda da qeyd edildiyi kimi hesabatlar maksimum 10 balla qiymətləndirilir. (Komissiya üzvlərinin hər biri 10 bal üzərindən tələbəni qiymətləndirir. Verilən ballar toplanır və qiymətləndirmə aparan üzvlərin sayına bölünür.)

4.2. Hesabatin dinlənməsi və qiymətləndirilməsində təcrübə bazasının nümayəndəsinin iştirakı zəruridir. Hesabatların qiymətləndirilməsi zamanı tələbənin təcrübə dövründə hansı bilik, bacarıq və vərdişlərə yiyələndiyinə xüsusi diqqət yetirilməlidir.

4.3. Təcrübə dövründə tələbənin aldığı ballar (davamiyyət, tələbənin təcrübə məşğələlərində fəallığına görə, tələbənin müəssisənin iş fəaliyyətində iştirakına görə) və hesabatdan aldığı bal toplanır və yekun qiymət çıxarılır.

4.4. Təcrübəçi tələbə aşağıdakı hallarda hesabata buraxılmır və həmin tələbənin təcrübəsi müfəvvəq sayılmır:

4.4.1. Davamiyyət limitini (mərhələlərə bölünən təcrübələrdə hər mərhələ üzrə ayrılıqda) aşarsa;

4.4.2. Qiymətləndirmə meyarlarının hər hansı birindən 0 bal alarsa;

4.4.3. müəssisə rəhbərliyi tərəfindən müsbət rəy ala bilməzsə.

4.5. Hesabata buraxılmayan, hesabatını təqdim etməyən və ya hesabatdan 0 (sıfır) bal alan tələbə təcrübəni keçməmiş sayılır və o təkrar təcrübədən keçməlidir.

4.6. Yekun qiymətləndirilmədə həm tələbənin topladığı bal, həmdə ona uyğun qiymət yazılmalıdır.

4.7. Toplana biləcək ballar və onlara uyğun qiymətləndirilmə aşağıdakı kimidir.

| | | |
|---|---|---|
| -51 baldan aşağı | - qeyri -kafi | - F |
| -51-60 bal | - qənaətbəxş | - E |
| -61-70 bal | - kafi | - D |
| -71-80 bal | - yaxşı | - C |
| -81-90 bal | - çox yaxşı | - B |
| -91-100 bal | - əla | - A |

## 5. Bəzi ixtisaslarda təcrübələrin mərhələlər üzrə müddəti və qiymətləndirilməsi

5.1. İqtisadiyyat, Mühasibat, Marketinq, Dövlət və bələdiyyə idarəetməsi, İqtisadiyyat (tədrisi ingilis dilində) və Menecment, həmçinin əlavə ali təhsil üzrə İqtisadiyyat və Mühasibat ixtisaslarında qiymətləndirilmə tələbələrin keçdikləri təcrübəyə uyğun olaraq aşağıdakı kimi aparılmalıdır.

5.1.1. Karyera planlaması üzrə - 100 bal (maksimum) aşağıdakı qaydada aparılmalıdır:

| | | |
|---|---|---|
| 5.1.1.1. | Davamiyyət | - 10 bal (maksimum) |
| 5.1.1.2. | Seminar məşğələləri | - 30 bal (maksimum) |
| 5.1.1.3. | Sərbəst iş | - 10 bal (maksimum) |
| 5.1.1.4. | Yekun qiymətləndirmə (Hesabat) | - 50 bal (maksimum) |

5.1.2. Yumşaq bacarıqlar üzrə - 100 bal (maksimum) aşağıdakı qaydada aparılmalıdır:

| | | |
|---|---|---|
| 5.1.2.1. | Davamiyyət | - 10 bal (maksimum) |
| 5.1.2.2. | Seminar məşğələləri | - 30 bal (maksimum) |
| 5.1.2.3. | Sərbəst iş | - 10 bal (maksimum) |
| 5.1.2.4. | Yekun qiymətləndirmə (Hesabat) | - 50 bal (maksimum) |

5.1.3. Sərt bacarıqlar üzrə - 100 bal (maksimum) aşağıdakı qaydada aparılmalıdır:

| | | |
|---|---|---|
| 5.1.3.1. | Davamiyyət | - 10 bal (maksimum) |
| 5.1.3.2. | Seminar məşğələləri | - 30 bal (maksimum) |
| 5.1.3.3. | Sərbəst iş | - 10 bal (maksimum) |
| 5.1.3.4. | Yekun qiymətləndirmə (Hesabat) | - 50 bal (maksimum) |

5.1.4. İstehsalat təcrübəsi/layihə - 100 bal (maksimum) aşağıdakı qaydada aparılmalıdır:

5.1.4.1. Davamiyyət - 10 bal (maksimum)
5.1.4.2. Tələbənin təcrübə məşğələlərində fəallığına görə - 40 bal (maksimum)
5.1.4.3. Tələbənin müəssisənin iş fəaliyyətində iştirakına görə - 40 bal (maksimum)
5.1.4.4. Hesabat - 10 bal (maksimum)

5.2. Karyera planlaması, Yumşaq bacarıqlar, Sərt bacarıqlar və İstehsalat təcrübəsinin hər birinə ayrı-ayrılıqda ayrılmış saatların 25%-də və daha çoxunda iştirak etməyən tələbə həmin mərhələ üzrə qiymətləndirilməyə buraxılmır.

5.3. Hər hansı mərhələdən qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir, növbəti mərhələyə buraxılmır və o, təkrar təcrübə keçməlidir.

5.4. İqtisadiyyat, Mühasibat, Marketinq, Dövlət və bələdiyyə idarəetməsi, İqtisadiyyat (tədrisi ingilis dilində), Maliyyə və Beynəlxalq ticarət və logistika ixtisaslarında Təcrübəyə ayrılan 30 kredit mərhələlər üzrə aşağıdakı kimi bölünsün

Təcrübənin müddəti - 20 həftə

| № | | Kreditin sayı | Təcrübə müddəti | Təcrübəyə ayrılan saat |
|---|---|---|---|---|
| 1 | Karyera planlaması | 5 | 4 həftə | 40 saat |
| 2 | Yumşaq bacarıqlar (Soft skills) | 9 | 6 həftə | 60 saat |
| 3 | Sərt bacarıqlar (Hard skills) | 10 | 6 həftə | 60 saat |
| 4 | İstehsalat təcrübəsi/layihə | 6 | 4 həftə | 40 saat |
| | Təcrübə - cəmi | 30 | 20 həftə | 200 saat |

5.5. Menecment ixtisasında Təcrübəyə ayrılan 30 kredit bölmələr üzrə aşağıdakı kimi bölünsün

Təcrübənin müddəti - 20 həftə

| № | | Kreditin sayı | Təcrübə müddəti | Təcrübəyə ayrılan saat |
|---|---|---|---|---|
| 1 | Karyera planlaması | 6 | 4 həftə | 40 saat |
| 2 | Yumşaq bacarıqlar (Soft skills) | 8 | 6 həftə | 60 saat |
| 3 | Sərt bacarıqlar (Hard skills) | 10 | 6 həftə | 60 saat |
| 4 | İstehsalat təcrübəsi/layihə | 6 | 4 həftə | 40 saat |
| | Təcrübə - cəmi | 30 | 20 həftə | 200at |

5.6. Qiyabi şöbə və əlavə ali təhsil üzrə İqtisadiyyat və Mühasibat ixtisaslarında Təcrübəyə ayrılan 30 kredit bölmələr üzrə aşağıdakı kimi bölünsün

Təcrübənin müddəti - 5 həftə

| № | | Kreditin sayı | Təcrübə müddəti | Təcrübəyə ayrılan saat |
|---|---|---|---|---|
| 1 | Karyera planlaması | 5 | 1 həftə | 10 saat |
| 2 | Yumşaq bacarıqlar (Soft skills) | 9 | 1 həftə | 10 saat |
| 3 | Sərt bacarıqlar (Hard skills) | 10 | 2 həftə | 20 saat |
| 4 | İstehsalat təcrübəsi/layihə | 6 | 1 həftə | 10 saat |
| | Təcrübə - cəmi | 30 | 5 həftə | 50 saat |

5.7. Məşqçilik ixtisasında qiymətləndirilmə aşağıdakı qaydada aparılmalıdır.

5.7.1. 10 həftəlik pedaqoji internaturanın qiymətləndirilməsi ("Pedaqoji internaturaya dair qaydalar"da göstərilmişdir)

5.7.2. 10 həftəlik məşqçilik təcrübəsinin qiymətləndirilməsi isə aşağıdakı kimi aparılmalıdır.

5.7.2.1. Davamiyyət - 10 bal (Davamiyyət balının hesablanması qaydası yuxarıda göstərilmişdir)

5.7.2.2. Tələbənin təcrübə məşğələlərində fəallığına görə verilən bal – maksimum 40 bal

5.7.2.3. Tələbənin müəssisənin iş fəaliyyətində iştirakına görə verilən bal –maksimum 40 bal

5.7.2.4. Tələbənin hazırladığı hesabata görə verilən bal – maksimum 10 bal

5.7.3. Məşqçilik ixtisasında hər iki təcrübənin (10 həftə pedaqoji internatura, 10 həftə məşqçilik təcrübəsi) balları toplanaraq ədədi orta çıxarılır həmin qiymət tələbənin təcrübədən aldığı yekun qiymət hesab edilir.

5.7.4. Hər bir mərhələyə ayri-ayrılıqda ayrılmış saatların 25%-ində və daha çoxunda iştirak etməyən tələbə həmin mərhələ üzrə qiymətləndirilməyə buraxılmır.

5.7.5. Hər hansı mərhələdən və təcrübədən (pedaqoji internatura və məşqçilik) qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir, növbəti mərhələyə buraxılmır və o, təkrar təcrübə keçməlidir.

5.8. Torpaqşünaslıq və aqrokimya ixtisasında qiymətləndirilmə aşağıdakı kimi aparılmalıdır.

5.8.1. Tədris təcrübəsi üzrə (4 həftəlik) - 6 kredit

5.8.1.1. Davamiyyət - maksimum 10 bal
5.8.1.2. Torpaqşünaslıq və minerologiya üzrə (2 həftə) - maksimum 40 bal
5.8.1.3. Botanika üzrə (2 həftə) - maksimum 40 bal
5.8.1.4. Hesabat - maksimum 10 bal

5.8.2. İstehsalat təcrübəsi üzrə (10 həftəlik) - 15 kredit
5.8.2.1. Davamiyyət - maksimum 10 bal
5.8.2.2. Torpaqşünaslıq üzrə (5 həftə) - maksimum 40 bal

5.8.2.3. Aqrokimya üzrə üzrə (5 həftə) - maksimum 40 bal
5.8.2.4. Hesabat - maksimum 10 bal

5.8.3. Təcrübənin sonunda hər iki təcrübənin (tədris və istehsalat) balları cəmlənərək ədadi orta tapılır və həmin qiymət tələbənin təcrübədən aldığı yekun qiymət hesab edilir.

5.8.4. Hər bir mərhələyə ayri-ayrılıqda ayrılmış saatların 25%-də və daha çoxunda iştirak etməyən tələbə həmin mərhələ üzrə qiymətləndirilməyə buraxılmır.

5.8.5. Hər hansı mərhələdən qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir, növbəti mərhələyə buraxılmır və o, təkrar təcrübə keçməlidir.

5.9. Əczaçılıq ixtisasında qiymətləndirilmə tələbələrin keçdikləri təcrübəyə uyğun olaraq aşağıdakı kimi aparılmalıdır.

5.9.1. Davamiyyət - 10 bal (Davamiyyət balının hesablanması qaydası yuxarıda göstərilmişdir)
5.9.2. Əczaçılıq deantologiyası - maksimum 15 bal
5.9.3. Əczaçılıq qanunvericiliyi - maksimum 15 bal
5.9.4. Əczaçılıq menecmenti - maksimum 15 bal
5.9.5. Əczaçılıq iqtisadiyyatı - maksimum 15 bal
5.9.6. Stasionarda Əczaçılıq xidmətinin təşkili - maksimum 15 bal
5.9.7. Tələbənin hazırladığı hesabata görə verilən bal - maksimum 15 bal
5.9.8. İstehsalat təcrübələrində hər hansı mərhələdən qiymətləndirilməyən tələbənin təcrübəsi məqbul hesab edilmir və o, təkrar təcrübə keçməlidir.

## 6. İstehasalat təcrübəsinə dair sənədlər

**6.1. Tələbənin təcrübəyə dair qovluğunda olmalı sənədlər**
6.1.1. İstehsalat təcrübəsinin kitabçası
6.1.2. Təcrübə müddətində hazırladığı resurslar (əgər varsa)
6.1.3. Müəssisədə iştirakçısı olduğu proseslərin sənədlərinin surəti (müəssisənin izni ilə)
6.1.4. Təcrübəyə dair təkliflər
6.1.5. Hesabat (yazılı)
6.1.6. Müəssisə tərəfindən verilən rəy

**6.2. İstehsalat təcrübə rəhbərindən tələb olunan sənədlər**
6.2.1. İstehsalat təcrübəsinin jurnalı
6.2.2. İstehsalat təcrübəsinin kitabçası
6.2.3. Hər bir tələbə üçün onun keçdiyi təcrübə haqqında müəssisə rəhbərinin imzası və müəssisənin rəsmi möhürü ilə təsdiqlənmiş rəy
6.2.4. Tələbələrin hesabatı
6.2.5. Təcrübə rəhbərinin hesabatı

**6.3. Fakültə dekanından tələb edilən sənədlər**
6.3.1. İstehsalat təcrübəsinin jurnalı
6.3.2. Fakültə üzrə təcrübələrin yekun hesabatı
6.3.3. Qiymətləndirilmə protokolları

## 6.4. Müəssisə rəhbərliyi tərəfindən təcrübəçi tələbəyə verilən rəyin məzmununa olan tələblər (xasiyyətnamə)

6.4.1. Təcrübəçi tələbəyə təcrübə keçməsinə dair təcrübədə olduğu müəssisənin rəhbərliyi tərəfindən rəy verilməlidir. Rəydə əsasən aşağıdakı tələblər öz əksini tapmalıdır.

6.4.1.1. Tələbənin təcrübə keçdiyi müəssisənin tam adı

6.4.1.2. Rəyin aid olduğu tələbənin adı, soyadı, atasının adı və ixtisası

6.4.1.3. Tələbənin təcrübə müddətində fəaliyyət göstərdiyi bölmələr haqqında məlumat

6.4.1.4. Tələbənin peşəkar bacarıqları

6.4.1.5. Tələbənin təcrübə rəhbərləri tərəfindən tapşırılan tapşırıqlara münasibəti və yerinə yetirmə səviyyəsi

6.4.1.6. Tələbənin işgüzar keyfiyyətləri

6.4.1.7. Tələbənin müəssisənin daxili nizam-intizam qaydalarına riayət etmə dərəcəsi

6.4.1.8. Tələbənin müəssisə rəhbəri, müəssisə əməkdaşları və müştəri ilə davranışı

6.4.1.9. Tələbənin təcrübə müddətində müstəqil olaraq gördüyü işlər, hazırladığı təkliflər

6.4.1.10. Rəyin verilmə tarixi, müəssisə rəhbərliyinin və müəssisə üzrə təcrübə rəhbərinin imzası, müəssisənin rəsmi möhürü

6.4.2. Müəssisə rəhbərliyi tərəfindən müsbət rəy verilməyən tələbənin təcrübəsi müfəvvəq sayılmır və o, hesabata buraxılmır!

## 6.5. Hesabatın hazırlanması qaydası

6.5.1. Təcrübəçi tələbə İstehsalat təcrübənin sonunda gördüyü işlərə dair müvafiq komissiya qarşısında hesabat verməlidir. Təcrübəçi tələbə görülmüş işləri təsvir edərək hesabatın tərtib etməli, sonda imza etməli və tarixi göstərməlidir.

6.5.2. Hesabatda görülən işlər aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:

6.5.2.1. Titul vərəqi (Titul vərəqi vahid formada olmalıdır. Əlavə 1).

6.5.2.2. Mündəricat (Bu hissədə hesabatda olan bütün başlıqların və yarımbaşlıqların səhifələri göstərilməlidir).

6.5.2.3. Əsas hissə.

6.5.2.3.1. Hesabatın əsas hissəsində aşağıdakı məsələlərin yer almasına diqqət yetirmək lazımdır:

6.5.2.3.2. Təcrübəçi tələbə haqqında qısa məlumat;

6.5.2.3.3. Təcrübə bazası haqqında məlumat;

6.5.2.3.4. Görülən işlər haqqında ətraflı məlumat;

6.5.2.3.5. Mühasibat və statistik hesabat formalarının surətləri;

6.5.2.3.6. İşlədikləri Qrafik, sxem, planların və s. surətləri;

6.5.2.3.7. İştirak etdikləri proseslər haqqında məlumat;

6.5.2.3.8. Əlavə informasiyalar;

6.5.2.3.9. İstehsalat təcrübə kitabçasında (fərdi plan və gündəlik) yer alan məsələlər;

6.5.2.3.10. Aparılan müşahidələr və onun nəticələri haqqında məlumat;

6.5.2.3.11. Təcrübə müddətində müəssisənin kollektivinin, o cümlədən müəssisənin rəhbərinin, onun müavinlərinin, digər heyətin köməyinin məzmunu;

6.5.2.3.12. Şəxsi bacarıq və vərdişlər haqqında (əmək fəaliyyəti üçün lazım olan ədəbiyyat və əyani vasitələrin seçilməsi; iş prinsiplərinin, üsul və priyomlarının seçilməsi);

6.5.2.3.13. Yerinə yetirilməyən tapşırıqlar və onun səbəbi;

6.5.2.3.14. İstehsalat təcrübəsinin təkmilləşdirilməsi üçün təkliflər;

6.5.2.3.15. Karyera planlaması, yumşaq bacarıqlar, sərt bacarıqlarla bağlı qazandıqları bilik və bacarıqları əks etdirən hesabatlar (uyğun ixtisaslarda).

6.5.3. Hesabatlar yazılı formada təqdim edilməsi zəruridir. Elektron təqdimat hazırlayan tələbələr (elektron təqdimatlar tələbənin İKT vasitələrindən istifadə bacarığını da ortaya qoyduğundan üstünlük verilsin) hesabatlarını yazılı formada da təqdim etməlidirlər. Hesabat "Arial" şrifti, 14 ölçüdə və 1,5 aralıqla çap edilməlidir. Kağızın formatı A4, yuxarı və aşağı sahələrdən 1,5 sm, sağdan 1 sm və soldan 3 sm olmalıdır.

6.5.4. Kafedraya təhvil verilmiş hesabat və hesabatın müsbət müdafiəsi tələbənin təcrübəsinin müvəffəqiyyətlə sona çatması deməkdir!

## 6.6. Sənədlərin saxlanma qaydası

6.6.1. Təcrübəyə dair bütün sənədlər ixtisas kafedralarında saxlanılmalıdır.

6.6.2. Elektron daşıyıcılarda tələb olunan materiallar, fotoşəkillər "Təcrübə və məzunlarla iş bölməsi"nə də təqdim olunmalıdır.

## 7. Əlavələr

7.1. Mövcud tədris planlarına əsasən əyani şəbədə 14 həftəlik təcrübələr 16 fevral-24 may, 20 həftəlik təcrübələrin isə 16 fevral - 05 iyul tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

7.2. Qiyabi şöbədə ikinci ali təhsil üzrə təcrübələr 16 fevral – 22 mart tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

7.3. Stomotologiya ixtisasında təcrübənin 22 aprel-3 may (2 həftə) tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

7.4. Tibbi profilaktika ixtisasında təcrübənin 22 iyun-5 iyul (2 həftə) tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

7.5. Müalicə işi ixtisasında təcrübənin 8 iyun-5 iyul (4 həftə) tarixləri arasında keçirilməsi nəzərdə tutulur.

7.6. Məşqçilik ixtisasında təcrübənin 10 həftəsi pedaqoji internatura, 10 həftəsi isə məşqçilik təcrübəsi nəzərdə tutulmuşdur.

7.7. Torpaqşünaslıq və aqrokimya ixtisasında təcrübənin 4 həftəsi tədris təcrübəsi, 10 həftəsi isə istehsalat təcrübəsi nəzərdə tutlmuşdur.

7.8. Təcrübələrin gedişi zamanı xüsusi anları ( gəzintilər, görüşlər, təqdimatlar, xüsusi iş prosesi) əks etdirən fotoşəkillər, videogörüntülər "Təcrübə və məzunlarla iş bölməsi"nə çatdırılısın.

**Əlavə 1**

**HESABATLARIN TİTUL VƏRƏQİ VAHİD FORMADA OLMALIDIR!**

Nümunə

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İqtisadiyyat və idarəetmə fakültəsinin qiyabi
şöbəsinin İqtisadiyyat ixtisası üzrə
V kurs tələbəsi ---------------------------------
16 fevral 2024-cü ildən 05 iyul 2024-cü il tarixədək
Naxçıvan şəhər İqtisadiyyat Nazirliyində keçdiyi
İstehsalat təcrübəsinin

H E S A B A T I

Naxçıvan – 2024

**Yaddaş**

**İSTEHSALAT TƏCRÜBƏSİ**

1. İstehsalat təcrübələri ixtisaslardan asılı olaraq 20 həftəlik 16 fevral - 05 iyul və 14 həftəlik 16 fevral-24 may müəyyənləşdirilmişdir

- Kimya, Coğrafiya, Biologiya, Baytarlıq, Torpaqşünaslıq və aqrokimya, Turizm işinin təşkili, Ekologiya mühəndisliyi, Energetika mühəndisliyi, Meliorasiya mühəndisliyi, Nəqliyyat mühəndisliyi, Memarlıq, Muzey, arxiv işi və abidələrin qorunması, İnstrumental ifaçılıq (XÇA), İnstrumental ifaçılıq (Fortepiano), İnstrumental ifaçılıq (Simli alətlər), İnstrumental ifaçılıq (Nəfəs alətləri), Bəstəkarlıq, Aktyor sənəti, Dirijorluq (Sahələr üzrə), Rəngkarlıq, Vokal sənəti (sahələr üzrə), Musiqişünaslıq, Fizika ixtisası üzrə təcrübələr 16 fevral-24 may tarixlərinə (14 həftəlik) müəyyənləşdirilmişdir.

- Digər ixtisaslarda 16 fevral - 05 iyul (20 həftəlik) müəyyənləşdirilmişdir.

2. 14 həftəlik təcrübələr 24 may tarixində yekunlaşdırılmalıdır. Təcrübə jurnalı 24 may tarixinə yekunlaşdırılmalıdır. "Tələbənin istehsalat təcrübəsinin qiymətləndirilməsi cədvəli" təcrübə rəhbərləri tərəfindən yekunlaşdırılıb, imzalanmalıdır. (Hesabatın qiymətləndirilməsi və istehsalat təcrübəsi üzrə yekun qiymət bölməsi istisna olmaqla). 24 may-31 may tarixlərində hesabatların müzakirəsi və qiymətləndirilməsi prosesi həyata keçirilməlidir. Fakültə dekanı hesabat və yekun qiymətləndirilmə prosesindən sonra təcrübə jurnalında uyğun bölmələri yekunlaşdırıb, imza çəkməli və "Təcrübə və məzunlarla iş bölməsi"nə təhvil verməlidir.

3. 20 həftəlik təcrübələr 21 iyun tarixində yekunlaşdırılmalıdır. Təcrübə rəhbərləri təcrübə sillabusunu hazırlayarkən 16 fevral-21 iyun tarixləri üçün proqram tutmalıdırlar. Təcrübə jurnalı 21 iyun tarixinə yekunlaşdırılmalıdır. "Tələbənin istehsalat təcrübəsinin qiymətləndirilməsi cədvəli"nin müvafiq bölmələri təcrübə rəhbərləri tərəfindən yekunlaşdırılıb, imzalanmalıdır. (Hesabatın qiymətləndirilməsi və istehsalat təcrübəsi üzrə yekun qiymət bölməsi istisna olmaqla). 21 iyun-05 iyul tarixlərində hesabatların müzakirəsi və qiymətləndirilməsi prosesi həyata keçirilməlidir. Fakültə dekanı hesabat və yekun qiymətləndirilmə prosesindən sonra təcrübə jurnalında uyğun bölmələri yekunlaşdırıb, imza çəkməli və "Təcrübə və məzunlarla iş bölməsi"nə təhvil verməlidir.

4. Torpaqşünaslıq və aqrokimya ixtisasında 4 həftə (16 fevral- 15 mart) Tədris təcrübəsi, 10 həftə isə (17 mart-24 may) İstehsalat təcrübəsi nəzərdə tutulmuşdur.

5. Məşqçilik ixtisası üzrə təcrübəçi tələbələr 29 aprel-21 iyun tarixlərində məşqçilik təcrübəsi keçməlidirlər. 21 iyun – 05 iyul tarixlərində hesabatların təqdimatı (pedaqoji internatura və məşqçilik təcrübəsi üzrə) və qiymətləndirilməsi prosesi həyata keçirilməlidir).